

Şakir XANHÜSEYN

## Qazi

...Çoxumuza addım atıb
necə yerimək öyrətdi
ayaqlarını Qarabağ savaşında qoyub gələn qazi...

Daha çox izlər qoymuş
heç yürüməadiyi dağlarda, düzlərdə,
ürəklərdə -
hər yerdə,
əzizlərini görəndə
heç nə olmamıştək gülən qazi...

Həm də şəhid olmuş
yoldaşlarının həyatını yaşayır,
Arzularının çin olmasına çalışır
min əllə, min ayaqla
ayaqlarını itirmiş qazi...

O ayaqlar ki,
ən keçilməz qayalıqlardan keçir indi də;
onlar üçün
dayanmaq yox, durmaq yox,
diz yerə vurmaq yox...

Ayaqlarının üstündə
mərd-mərdanə durmağı bacardı
vətənə qurban etdiyi ayaqlarıyla
bu qadir, yenilməz qazi
edərək özünə heyran bizi!

## Toxu...

Əlini bir işə toxu,
etmə əndişə, toxu.
Bu haylı-küylü dünyadan
sakit bir guşə toxu...

Ayağını toxu yola,
bir ağaca sarıl da,
Gör ki, sevgin yarpaqladı
onun budaqlarında...

İşığı işığa toxu,
kəhkəşanlar yaransın.
Ocağını bir ocağa
Toxu, əbədi yansın...

Eşqini yansıt hər şeyə,
qoy naxışlansın ömrün.
Yüzdə qurtarsın, təzədən
birdən başlansın ömrün!

* * *

...Güvəndiyin bir yarpağa dayaqlan,
bir yaşıl ota,
lap quru budağa dayaqlan...

Yeri gələndə
bir gülün qönçəsinə,
bir ağacın kölgəsinə dayaqlan...

Bir hissə, duyğuya,
yalana deyil, doğruya,
sevgiyə-sayqıya dayaqlan...

İnan inama,
haqq-salama dayaqlan.
dayaza yox, dərinə,
asana yox, çətinə dayaqlan...

Namərddən keç, mərd sözünə,
sözün ən düzünə,
gün şüası düşürmü üstünə,
ona dayaqlan!..

* * *

...Yollar da qapıdır,
xəyallar da...
sehrli qapıdı sözlər,
aç gözəlliyə, haqqa!

Ən qaranlıq gecə
ən aydın səhərə qapı,
bəzən adam xoşbəxtliyini
bir qapı açmaqla tapır...
qapıdı salamın bir sevincə,
xoş əhvala, hala...
sanki quşların qanadıyla açılan qapıdı göylər,
köklər
ağacların açılan qapısı...

Bax, eşidirsən bir səs,
bir qapı açılır,
duyursan gedib-gələn bir nəfəs,
bir qapı açılır,
qapılar açılır!..
şərə bağladığın qapı
xeyirə açılır...

qələmlə bir qapı döy,
şeirə açılır!..
Təkcə evdə yox,
çöldə də qapı açıb-örtürsən;
kiməsə rahat qapı açmaqdı
onun yoluna düşmüş
bir daşı götürsən...

## Gözümdən daşıram...

Sağ ol, körpü üstdən su keçirirsən,
Sular da iz qoyur keçdiyi yerdən...
Qızmar, isti günün altında su da
Bəlkə susuz keçir keçirsə hardan...

Kim bilir suların nə çəkdiyini;
Onlar da qaçırır yuxularını...
Dəryaya atsınlar özlərini lap,
Soyuda bilmirlər yanğılarını...

Gözümdə daşısam bir od damcısı,
Taledən yemişəm, demək, qamçı mən...
Bax, dəniz də daşır, aşır sahili,
Gözümdən daşıram damcı-damcı mən...

## And yeri

...Bəzən işıq sevdasını
əldə çıraq edib də,
bir İşığın dalınca gedib, gedib də
zülmətə qovuşarsan;
heyrətlə baxarsan ki,
elə bu Qaranlıqmış
sənin ən çox sevdiyin
İşıqların da and yeri...

## Bir ömür boyu

Eləcə bir sözün üstündə dayan,
dayanmadan yürü bir ömür boyu...
Çəkəcək, əlini görməyəcəksən,
ayağından biri bir ömür boyu...

Hamının gətirmir bəxti, naxışı,
qonaydı çiyninə kaş dövlət quşu...
Məni yaraladın, sağ ol, çox yaxşı,
gəl yaramı sarı bir ömür boyu...

Naşıya baş qoşmaq deyildir asan,
nadana həmişə qulaqımı asaq...
Nə olar, təkcə sən girov saxlasan
yanında bu ömrü bir ömür boyu...